# Sülhməramlılara aid avtomobillər ərazidən sərbəst keçib

**Rusiya sülhməramlılarına məxsus bir avtomobil azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən sərbəst keçib.**




AZƏRTAC-ın aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, minik avtomobilinin Laçından Xankəndi istiqamətində hərəkətinə şərait yaradılıb.

Həmişə olduğu kimi, ekoaksiyanın 74-cü günündə də sülhməramlılara məxsus nəqliyyat vasitələrinin ərazidən heç bir maneə olmadan hərəkət etmələri bir daha aksiyanın məramının dinc olduğunu nümayiş etdirir. Azərbaycanlı ekofəallar etirazların ilk günündən humanist prinsiplərə sadiqdirlər. Heç də siyasi xarakter daşımayan bu aksiya Qarabağ ərazisində faydalı qazıntı yataqlarının istismarına qarşıdır.

* * *

Sülhməramlılara aid on beş yük və bir minik avtomobilinin Laçından Xankəndiyə doğru hərəkətinə şərait yaradılıb. Bunlardan dördü yanacaqdaşıyan avtomobildir.

Gün ərzində aksiya ərazisindən 67 avtomobilin keçidi təmin olunub.

Azərbaycan.- 2023.- 24 fevral.- S.5.